**UOT 32; 351/354**

# DÖVLƏT İDARƏETMƏ MEXANİZMİ KİMİ DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ METODOLOJİ TƏHLİLİ

**Aysel QULİYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 sentyabr 2022; çapa qəbul edilmişdir: 24 oktyabr 2022; online-da çap edilmişdir: 30 dekabr 2022

Received: 19th of September, 2022; accepted: 24th of October, 2022; published online: 30th of December, 2022

**Açar sözlər:** *dövlət idarəçiliyi, biznes, dövlət-özəl tərəfdaşlığı*

## Giriş

Son illərdə istər iqtisadi sistem və münasibətlər, istər dövlət idarəçiliyi üzrə elmi tədqiqatlarda dövlətin iqtisadi münasibətlər sistemində bərabərhüquqlu tərəfdaş qismində iştirakı probleminə maraq durmadan artmaqdadır. Qeyd edilən tədqiqat sahələrində özəl sektor institutları və dövlət arasında ortaq məqsədlər naminə əməkdaşlıq dövlət idarəçiliyinin ən optimal və innovativ mexanizmlərindən biri kimi təqdim olunmaqdadır.

Müasir anlamda dövlət-özəl sektor əməkdaşlığı ictimai məzmun daşıyan beynəlxalq, milli və lokal layihələrin həyata keçirilməsi məqsədi ilə dövlət və biznes arasında yaradılmış institusional və təşkilati alyans kimi başa düşülür.

İnkişafın müasir mərhələsində optimal idarəetmə mexanizmi kimi dövlət-özəl sektor tərəfdaşlığı Azərbaycan üçün xüsusi aktuallıq kəsb etməyə başlamışdır. Bunun bir sıra obyektiv səbəbləri var. Son illərdə dünya iqtisadiyyatında baş verən ardıcıl iqtisadi böhranlar, günün reallığına çevrilən qlobal epidemiyaların gözlənilməz xarakteri və nəticələri, sosial, iqtisadi infrastruktur layihələrin həyata keçirilməsi işində dövlətin əsas və yeganə donorluq funksiyasından imtina etməsinə gətirib çıxarmışdır. Eyni zamanda Azərbaycan üçün təbii resurs və xammal satışı nəticəsində əldə olunan gəlirlərin bu sektora xərclənməsi artıq aktual deyildir. Postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərin sosial və iqtisadi infrastrukturunun bərpası və yenidən qurulması, repatriasiya prosesinin həyata keçirilməsi kimi qlobal vəzifələr gələcək 10 ildə dövlət büdcəsindən əhəmiyyətli maliyyə resurslarının bu sahəyə xərclənməsini tələb edir ki, bu da yolverilməzdir. Belə bir şəraitdə qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün dövlət özəl sektor tərəfdaşlığının yeni idarəetmə mexanizminə çevrilməsi labüddür. Bu səbəbdən günümüzdə Azərbaycanda elmində istər siyasi, istər idarəetmə, istər iqtisadi tədqiqatlarda qeyd edilən mexanizmin əsaslarının ciddi tədqiqinə ehtiyac duyulur.

### Dövlət özəl sektor tərəfdaşlığının mahiyyəti

Sırf termin kimi ingilis dilində "public-private partnership" kimi səslənən dövlət özəl sektor əməkdaşlığının müstəqil kateqoriya kimi XX əsrin 50-ci illərindən başlayaraq, ilk 20 ildə tamamilə fərqli sahələr üzrə istifadə edilməsi də deyilənlərin sübutudur. Belə ki, XX əsrin 50-ci illərində PPP, yaxud Dövlət-özəl əməkdaşlığı sırf təhsil sahəsində dövlət və özəl sektorun investisiyalaşma prosedurunda birgə iştirakını nəzərdə tuturdu. Daha

* *doktorant, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: aysel_quliyeva50@outlook.com

sonrakı onillikdə termin ictimai iaşə obyektlərinin maliyyələşməsində birgə əməkdaşlığı, 70-ci illərdən isə iri şəhərlərin yenidən qurulması və modernləşməsi işində dövlət və özəl sektorun birgə fəaliyyəti anlamına gəlir. Artıq XX əsrin 80-cı illərindən dövlət-özəl sektor əməkdaşlığı ayrıca proses kimi elmi tədqiqat mövzusuna çevrilməyə başlayır. XX əsrin 80-90-cı illərində DÖST-ün intensiv şəkildə tətbiq edildiyi əsas ölkələr Böyük Britaniya və Avstraliya idi. Ona görə müstəqil idarəetmə kateqoriyası kimi DÖST-ön mahiyyəti ilə bağlı fərqli şərhlərə məhz ingilis alimləri arasında rast gəlinir.

İngiltərədə ayrıca kateqoriya kimi dövlət özəl sektor əməkdaşlığı metodoloji səviyyədə ilk dəfə M.Bult-Spirinq və Q.Devult tərəfindən araşdırılır. Onların araşdırmasının ən mühüm əhəmiyyəti ondadır ki, onlar dövlət-özəl əməkdaşlığının bütün izah formalarını sistemləşdirərək çox sadə bir tərif ortaya qoyurlar. Tədqiqatçıların fikrincə, dövlət-özəl əməkdaşlığı dövlət və özəl sektorun subyektləri arasında qarşılıqlı layihələrin qanunla təsdiqlənən realizəsidir. (2, s. 26) Bult Sprinq və Q.Devul dövlət-özəl əməkdaşlığı ilə bağlı anlayışların 9 formada interpretasiyasını verir:

1. Biznes və hakimiyyət arasında elə bir davamlı əməkdaşlıq formasıdır ki, burada hər iki tərəf xidmət göstərir, əmtəə istehsal edir, riskləri, gəlir və itkiləri bölüşdürür.
2. Dövlət və özəl sektor arasında elə bir normativ hüquqi və institusional münasibət formasıdır ki, hər iki tərəf şəxsi marağını güdərək ümumi rifah üçün çalışır.
3. Dövlət özəl əməkdaşlığı xüsusi sistem olub dövlət hakimiyyətinin nümayəndələri ilə bir yaxud bir neçə şirkətin əməkdaşlığının yaxud birliyinin bu və ya digər ictimai rifah yaxud xidmətləri maliyyələşdirməsidir.
4. Dövlət-özəl əməkdaşlığı bazarın iflası zamanı tənzimləmə aləti kimi dövlət və özəl sektor arasında kapitalın cəlb edilməsi və ümumi məsuliyyətin müəyyən edilməsi birliyidir.
5. Xüsusi mexanizm olub məlumatverici və innovativ xarakter daşıyır, biliyi biznes mühitindən dövlət idarəçiliyinə daşıyır və son məqsədi dövlətin fəaliyyət prinsiplərini dəyişməkdir.
6. İctimai xidmətlərin göstərilməsi zamanı problemlərin bu xidmətləri kommersiyalaşdırma hesabına həllini təşkil edən mexanizmdir.
7. Dövlət sektoru tərəfindən fiskal gərginliyin aradan qaldırılması və biznes sektorunun maraqlarının nəzərə alınması üsuludur.
8. İnzibati prosedurların və işçilərin tələbatlarının, çağırışlarının tərəfdaşlıq yaratmaq formasında adaptasiyasıdır.
9. Biznes və hakimiyyət təmsilçiləri arasında xüsusi resursların və biliklərin ümumi sərvətlərin yaradılması və bölüşdürülməsi işinə cəlb edilməsi müstəvisində yaranan münasibətlərdir. (2, s. 29)

XX əsrin sonlarından etibarən Qərbi Avropa və ABŞ-da dövlət və özəl sektor tərəfdaşlığı müstəqil idarəetmə kateqoriyası kimi tədqiq olunur. Bu tədqiqatlarda dövlət-özəl sektor əməkdaşlığının mahiyyəti ilə bağlı təklif olunan açıqlamalar da yuxarıda qeyd edilən izah formalarına uyğundur. Misal üçün Amerika əsilli professor E.Savaş "dövlət və özəl sektor əməkdaşlığı"nın üç izah formasını təklif edir:

1. Dövlət özəl sektor əməkdaşlığı hər iki tərəfin bu və ya digər formada istər infrastruktur layihələrinin həyata keçirilməsi, istəsə də məhsul, yaxud xidmətlərin istehsalı prosesi üçün birləşməsidir.
2. Dövlət və özəl sektor əməkdaşlığı dövlət, biznes və cəmiyyət tərəfindən bu və ya digər ərazi üzrə inkişafın təşkili, əhalinin rifahının yaxşılaşdırılması naminə birgə fəaliyyət formasıdır. (6, s. 105)

Savaşın dövlət özəl sektor tərəfdaşlığı ilə bağlı verdiyi açıqlamada qeyri müəyyənlik ondadır ki, bu tərəfdaşlığın bir subyekti kimi cəmiyyətin adı qeyd olunsa da konkret olaraq hansı təsisatlardan söhbət getdiyi izah olunmur. Bununla belə, onun DÖST-lə bağlı

proqnozu mütərəqqi hesab edilə bilər. Belə ki, Savaşa görə, DÖST-ün tətbiqi istər dövlətin, istərsə də biznes strukturlarının sosial və iqtisadi infrastruktur layihələrinin realizəsi ilə bağlı ənənəvi yanaşmalarını və idarəetmə üslublarını aradan qaldırır. Başqa sözlə, Savaş DÖST-ü yeni idarəetmə mexanizmi kimi təqdim edir. Savaşın DÖST-lə bağlı verdiyi şərhlərdə çatışmamazlıqlardan biri də odur ki, belə bir tərəfdaşlığı şərtləndirən amillər müəyyən edilmir.

DÖST-ün mahiyyəti ilə bağlı qəbul edilən müasir yanaşmalardan biri Klayn və Teysmana məxsusdur. O qeyd edir ki, "DÖST-i ortaq məhsulun, xidmətlərin və risklərin, xərclərin bölüşdürülməsinin həyata keçiriləsi ilə əlaqəli dövlət və özəl sektor təmsilçilərinin dayanıqlı əməkdaşlığ kimi izah etmək olar". (5, s. 85) Bu yanaşma DÖST-ün əsas məqsədini və tərəflərin üzərinə düşən öhdəlikləri əhatə etmiş olur. Məsuliyyət gəlirlərin, xərclərin və risklərin bölüşdürülməsi ilə bağlıdır.

M.Cerrard DÖST-ün mahiyyətini onun tətbiq məqsdlərində axtarır. Onun fikrincə dövlət DÖST-dən mexanizm kimi dövlət xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması və dövlət sektorunun aktivlərinin istifadə edilməsi üçün istifadə edir. Bunun üçün özəl sektorun və bəzi hallarda dövlət maliyyələşməsi tətbiq edilə bilər. Cerrardın fikrincə, müəyyən funksiyaları DÖST-ə həvalə edən dövlət prosesin özü ilə deyil daha çox nəticələrlə maraqlanır. "DÖST mexanizm kimi dövlət tərəfindən bu və ya digər layihələrin daha effektiv və daha az risklə reallaşdırılmasına imkan verən təkmilləşdirilmiş idarəetmə prosedurudur". (3, s. 445)

Elmi ədəbiyyatlarda DÖST-lə bağlı geniş istifadə edilən yanaşmalardan biri də H.Van-Heym və Y.Kopeniyan tərəfindən təklif edilir. (8, s. 68) Onların yanaşmasına görə "DÖST dövlət və özül sektor arasında uzunmüddətli əməkdaşlıq forması olub, məhsul və xidmətlərin hazırlanması, risklərin, xərclərin və resursların bölüşdürülməsi məqsədini daşıyır." Bu yanaşmanın Klayn və Teysman yanaşmasından əsas fərqi resursların bölüşdürülməsi prosesinin əlavə edilməsidir. Eyni zamanda bu yanaşmanın müəllifləri qeyd edir ki, DÖST-ün tətbiqi müəyyən şərtlərə əsaslanmalıdır. Bu şərtlərdən birincisi təklif edilən xidmət və məhsulların qeyri-standart və innovativ xarakter daşıması, ikincisi isə DÖST-ün tətbiqinin tərəflərdə institusional yenilənməyə səbəb olmasıdır.

Oxşar yanaşma ilə A.Akintoe çıxış edir. Akentoenin DÖST-lə bağlı verdiyi formulada dəyişdirilir. Akentoe qeyd edir ki, DÖST dövlət və özəl sektor arasında bağlanmış uzunmüddətli müqavilə olub, əsas məqsədi ictimai infrastrukturun inkişafı naminə risk və resursların bölünməsidir. (1, s. 67) Göründüyü kimi, Akentoye dövlət və özəl sektor arasında əməkdaşlığın predmetini dəyişdirir. Əgər bundan əvvəlki yanaşmalarda söhbət xidmətlərdən, məhsullardan və layihələrdən gedirsə, burada söhbət konkret olaraq ictimai əhəmiyyətli infrastrukturlardan gedir. (1, s. 68)

DÖST-ün mahiyyəti ilə bağlı institusional və maliyyə aspektlərini qabardan yanaşmalardan biri Q.Hoc və K.Qrivə məxsusdur. (4, s. 160) Bu yanaşmanın institusional səciyyəsi ondadır ki, Hoca görə, DÖST dövlət və özəl sektor arasında nəticəsi xüsusi təsisatın yaranması ilə nəticələnən əlaqə mexanizmidir. Bu yanaşmanın əsas fərqi ondan ibarətdir ki, DÖST tətbiqinin sonunda ortaya çıxan nəticələr, o cümlədən risklər məhz formalaşan yeni təsisatın üzərinə düşür. Bundan başqa, onlar qeyd edir ki, DÖST dövlət və özəl sektor arasında xüsusi maliyyə mübadiləsi yaranır. Burada hər iki sektorun maliyyə imkanlarını ictimai əhəmiyyətli infrastruktur layihələrinin həyata keçirilməsi üçün səfərbər edir.

İndividual elmi yanaşmalar arasında DÖST-ün mahiyyəti ilə bağlı təklif edilən təriflər arasında fərqlər dünya praktikasında bu mexanizmin müxtəlif iqtisadi məqsədlərin həyata keçirilməsi üçün tətbiq edilməsi ilə bağlıdır. Məhz müxtəlif ölkələrdə DÖST predmetinin fərqli olması və istiqamətləri arasında uyğunsuzluq onun mahiyyətinin izahı ilə

bağlı ortaq nəticənin çıxarılmasına mane olur. Bununla belə, dünya ölkələri üzrə bu istiqamətlər və predmetlərə müvafiq olaraq yanaşmaların sistemləşdirilməsi və bu sistem əsasında ümumi bir fikir söyləmək mümkündür. Belə sistemləşdirmələrdən biri rusiyalı iqtisadçı alim N.Kvaşininaya məxsusdur. O, DÖST-lə bağlı bütün tədqiqatları sistemləşdirərək, 6 əsas yanaşma müəyyən etmişdir: (7, s. 6)

Birinci, DÖST hər şeydən öncə dövlət və özəl sektor arasında xüsusi iqtisadi münasibətlər sistemidir. Bu tip yanaşmanı Kanada siyasi tədqiqatlar institutu, ABŞ Kentukki universitetinin iqtisadçı alimlər qrupu, Çinin iqtisadiyyat üzrə bir sıra mütəxəssisləri müdafiə edirlər.

İkincisi, DÖST – dövlət əhəmiyyətli və o cümlədən özəl subyektlər üçün maraq doğuran layihələrin realizə mexanizmi kimi. Başqa sözlə dövlət və özəl sektor hər iki tərəf üçün xüsusi iqtisadi əhəmiyyət daşıyan layihələrin realizəsi üçün müvəqqəti əməkdaşlıq qururlar. Bu yanaşma Avstraliya, ABŞ, Çin, CAR kimi ölkələrdə DÖST-lərin formalaşmasının əsas məqsədlərindən birini təşkil edir.

Üçüncüsü, DÖST dövlət və biznes subyektlərinin birgə fəaliyyətini tənzimləyən formal və qeyri formal qaydaların məcmusuna əsaslanan institut kimi nəzərdən keçirilir. Bu institutun başlıca məqsədi tərəflərin iqtisadi və sosial mənafeyinin qorunması və təhlükəsizliyinin təmin edilməsi şərti ilə ümumilikdə cəmiyyətin maraqlarına xidmət etməkdir.

Dördüncüsü, DÖST idarəetmə mexanizmi kimi nəzərdən keçirilir. Daha konkret desək, DÖST ölkə iqtisadiyyatının strateji və taktiki idarəetmə mexanizmi olaraq vaxtaşırı tətbiq edilir.

Beşinci, sərmayə cəlb etmək mexanizmi kimi. Başqa sözlə, DÖST bu və ya digər ölkəyə, yaxud regiona dövlətin, sektor, yaxud obyekt üzərinə mülkiyyət hüququ saxlanılmaqla biznes subyektlərinin sərmayəsinin cəlb edilməsi metodudur.

Altıncı, DÖST sosial mexanizm funksiyasını yerinə yetirir. Konkret olaraq, dövlət tərəfindən sosial siyasətin və bu siyasət çərçivəsində sosial layihələrin cəlb edilməsi məqsədi ilə özəl sektor subyektləri ilə əməkdaşlığın qurulması prosesindən söhbət gedir.

Ümumən belə bir fikir üstünlük təşkil edir ki, DÖST haqqında ümumi müəyyənedici tərif söyləmək ona görə mümkün deyil ki, o dünyanın müxtəlif ölkələrində müxtəlif məqsədlərlə təşkil olunur.

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin inkişafı Agentliyi dövlət və özəl sektor arasında əməkdaşlığa xüsusi tərif verir: "*Beynəlxalq miqyasda dövlət-özəl sektor tərəfdaşlığı (DÖST) PPP (Public Private Partnership) kimi tanınır, ictimai (dövlət) infrastruktur və ya xidmətlərin təmin edilməsi üçün dövlət və özəl sektor arasında uzunmüddətli müqavilədir və burada özəl sektor müəyyən risklər və idarəetmə məsuliyyətini daşıyır, eləcə də özəl sektora edilən ödəniş fəaliyyətin nəticələrinə əsaslanır.*" (9) Ənənəvi qəbul edilmiş yanaşmalara oxşar olsa da səciyyəvi xüsusiyyəti odur ki, burada risklər üzrə məsuliyyət tamamilə özəl sektorun üzərinə ötürülür. Eyni zamanda bu tərif birgə əməkdaşlığın sahələri və obyektlərini müəyyən etmir. Bununla belə Azərbaycan qanunvericiliyində dövlət özəl əməkdaşlığının obyektləri ilə bağlı xüsusi status vurğulanır. Azərbaycan Respublikasında "Dövlət müəssisələrinin (obyektlərinin) müqavilə əsasında idarəetməyə verilməsi haqqında Əsasnamə" dövlət və özəl əməkdaşlığını dövlətin xüsusi əhəmiyyətə malik iqtisadi obyektlərinin, yaxud infrastrukturlarının, vaxtı keçmiş perspektivli layihələrinin yenidən dirçəldilməsi üçün xüsusi mexanizm kimi nəzərdən keçirir. Azərbaycanda bu əsasnamə 9 fevral 1996-cı ildə Ulu Öndər Heydər Əliyev tərəfindən təsdiq edilmişdir. Əsasnamənin məramları onu da deməyə əsas verir ki, ümumi iqtisadi böhran şəraitində, xüsusi transformasiya rejimində dövlət-özəl əməkdaşlığı miqyasına görə makroiqtisadi mexanizm ola bilər.

**Nəticə**

Ən ümumi şəkildə DÖST-ün nəzəri metodoloji təhlili müəyyən nəticələri ümumiləşdirməyə imkan verir ki, bu ümumiləşdirilmiş müddəalar onun mahiyyətini müəyyən mənada açıqlayır.

Hər şeydən öncə bunu qeyd etmək lazımdır ki, dövlət və özəl sektor arasında tərəfdaşlıq dövlət və cəmiyyət arasında iqtisadi zəmində münasibətlərin təzahür formalarından biri kimi ortaya gəlmişdir. Tarixin müxtəlif mərhələlərində idarəetmə xüsusiyyətlərindən və cəmiyyət qarşısında iqtisadi öhdəlik və vəzifələrindən irəli gələrək dövlət hər zaman iqtisadi proseslərə müdaxilə etmiş və bu müdaxilə dövlətin statusundan asılı olaraq, ən müxtəlif formalarda özünü büruzə vermişdir. Bu müdaxilələr bəzən dövlətin özünün maraqlarının təmin edilməsi, bəzən isə cəmiyyətin iqtisadi subyektlərinin ehtiyaclarının ödənilməsi məqsədini daşımışdır. Qeyd edilən iqtisadi öhdəlik və vəzifələrin yerinə yetirilməsi üzrə səlahiyyətlərin başqa institutlara ötürülməsi praktikası da bu təzahürlərin biri hesab oluna bilər.

Dövlətin iqtisadi proseslərdə müstəqil subyekt kimi iştirak etmək tendensiyası, iqtisadi proseslərdə orbitr funksiyasını yerinə yetirməsi cəhdləri, iqtisadi səlahiyyətlərin və vəzifələrin nisbətən kiçik iqtisadi subyektlərə ötürülməsi praktikası ictimai formasiyadan asılı olmayaraq hər zaman tətbiq edilməsinə baxmayaraq, bu proseslə bağlı elmi araşdırmalar XVIII əsrin sonları və XIX əsrin əvvəllərində meydana gəlmişdir.

XX əsrin 90-cı illərində DÖST effektiv idarəetmə mexanizmi statusu alır və müstəqil idarəetmə kateqoriyası kimi bu sahənin mütəxəssisləri tərəfindən tədqiq edilir. Əgər ənənəvi iqtisadi nəzəriyyələrdə dövlət özəl sektor əməkdaşlığı dövlətin iqtisadi proseslərə müdaxiləsi və dövlətin iqtisadi proseslərdə iqtisadi subyekt kimi iştirakı prizmasından təhlil olunurdusa, idarəetmə kateqoriyası kimi söhbət iqtisadiyyatın özəl subyektlərinə dövlətin cəmiyyət qarşısında məsuliyyətindən irəli gələn funksiyalarının həvalə edilməsindən gedir. Təsadüfi deyil ki, yeni idarəetmə nəzəriyyələrində bu əməkdaşlığın predmetini dövlət və özəl sektorun iqtisadi gəlirləri deyil, cəmiyyətin ümumi rifahı ilə bağlı təqdim edilən xidmətlər və sosial layihələr təşkil edir.

Sadə formada onu demək olar ki, dövlət-özəl sektor əməkdaşlığı dövlətin biznes layihələrinə qoşulmasını deyil, ictimai əhəmiyyətli layihələrə dövlət tərəfindən özəl sektorun cəlb olunması mexanizmlərinin tətbiqini nəzərdə tutur. Müasir anlamda dövlət-özəl sektor əməkdaşlığı ictimai məzmun daşıyan beynəlxalq, milli və lokal layihələrin həyata keçirilməsi məqsədi ilə dövlət və biznes arasında yaradılmış institusional və təşkilati alyans kimi başa düşülür.

Müxtəlif sosial-iqtisadi inkişaf mərhələsində olan ölkələrin təcrübəsinin təhlili göstərir ki, bu tip əməkdaşlıqlar nəqliyyat (avtomobil yolları, dəmir yolları, hava limanları, dəniz limanları, boru nəqliyyatı və sair), sosial infrastruktur (səhiyyə, təhsil, istirahət və turizm), kommunal (su təchizatı, elektrik təchizatı, suyun təmizlənməsi, qaz təchizatı və sair) sektorlarında daha uğurla tətbiq olunur.

## ƏDƏBİYYAT


1. Akintoye A.; Beck M.; Hardcastle C. Public-Private Partnerships: Managing Risks and Opportunities; Blackwell Science: Oxford Malden, 2003, 448 pp.
2. Bult-Spiering M. & Dewulf G. Strategic Issues in Public-Private Partnerships: An International Perspective 2nd Edition. Wiley-Blackwell. 2007, 216 pp.
3. Gerrard M.B. Public–Private Partnerships: What are Public Private Partnerships, and How Do They Differ from Privatization // Finance and Development, 2001, Vol. 38. No. 3, p. 441-451.
4. Hodge G., Greve C. (eds.). The Challenge of Public–Private Partnerships: Learning from International Experience. Cheltenham, UK: Edward Elgar, 2005 368 pp.

5. Public-Private Partnerships: Theory and Practice in International Perspective / Ed. by S. P. Osborne. London: Routledge, 2000. p. 84-102.
6. Savas E.S. Privatization and Public Private Partnerships. N.Y.: Chatham House Publishers, 2000, 368 pp.
7. Квашнина Н.А., Орешкова М.Е. Систематизация подходов к пониманию государственно-частного партнёрства в России и за рубежом. Вестник финансового университета, 2011, №6, с. 5-12.
8. Резниченко Н.В. Модели государственного-частного партнёрства. Вестник С-Петерб. Университета Сер. Менеджмента. Выпуск 4, 2010, с. 58-83.
9. DÖST nədir?: Elektron resurs: https://smb.gov.az/az/nav/dovlet-ozel-sektor-terefdasligi

***Резюме***

***Айсель Гулиева***

***Методологический анализ государственно-частного партнерства как механизма государственного управления***

Статья посвящена методологическому анализу государственно-частного партнерства как механизма, обеспечивающего оптимальные экономические результаты в системе государственного управления. Государственно-частное партнерство в последние годы представлено как самостоятельная категория в науках о государственном управлении. Автор отмечает, что первые взгляды на государственно-частное партнерство формировались не только в теориях, связанных с государственным управлением, но преимущественно в экономических теориях на тему государственного вмешательства в экономику.

В 80-х годах XX века государственно-частное партнерство стало предметом исследований по менеджменту и государственному управлению в Великобритании. В различных подходах озвучиваются разные мнения о сути государственно-частного партнерства. Практически эти исследования автор характеризует как первое методическое исследование по указанному механизму. Британские экономисты М.Булт-Спайринг и Г.Девульт представляют 9 основных систематизированных интерпретаций государственно-частного сотрудничества в западных литературах по экономике и науке управления и определяют его основные характеристики и функции. Трактуются подходы таких специалистов по менеджменту, как Саваш, Джеррард, Тейсман, Кляйн, Акинтойе из стран Западной Европы и США, относящийся к типологии, функциям, основному характеру и структуре государственно-частного партнерства. Обобщая эти взгляды, автор приходит к выводу, что государственно-частное сотрудничество можно трактовать как процесс сотрудничества государства и частного сектора, как порожденный этим сотрудничеством институт, как инвестиционный процесс, инициированный с целью реализации общественно значимых проектов, как сфера социального обслуживания. Отсюда считается, что многообразие целей и задач государственно-частного партнерства в разных странах мира, в том числе и сфер применения, не позволяет дать о нем единого определения. В статье отмечается, что для понимания основной функции государственно-частного партнерства в той или иной стране необходимо изучить законодательную базу, связанную с этим механизмом в этой стране.

***Ключевые слова:*** *государственное управление, бизнес, государственно-частное партнерство*

***Summary***

***Aysel Guliyeva***

***Methodological Analysis of Public-Private Partnership as a Public Management Mechanism***

The article is devoted to the methodological analysis of public-private partnership as a mechanism that provides optimal economic results in the public administration system. In recent years, public-private partnership has been presented as an independent category in the sciences of public administration. The author notes that the first views on public-private partnership were formed not only in theories related to public administration, but mainly in economic theories on the topic of state intervention in the economy.

In the 1980s, public-private partnership became the subject of research in management and public

administration in the UK. Different approaches voice different opinions about the essence of public-private partnership. In practice, the author characterizes these studies as the first methodological study on the indicated mechanism. British economists M.Bult-Spiring and G.Devult present 9 main systematized interpretations of public-private cooperation in Western literature on economics and management science and define its main characteristics and functions. The approaches of such management specialists as Savas, Gerrard, Theisman, Klein, Akintoye from Western Europe and the USA are interpreted, relating to the typology, functions, basic nature and structure of public-private partnership. Summarizing these views, the author comes to the conclusion that public-private cooperation can be interpreted as a process of cooperation between the state and the private sector, as an institution generated by this cooperation, as an investment process initiated with the aim of implementing socially significant projects, as a sphere of social services. Hence, it is believed that the diversity of goals and objectives of public-private partnership in different countries of the world, including areas of application, does not allow a single definition of it. The article notes that in order to understand the main function of public-private partnership in a particular country, it is necessary to study the legislative framework associated with this mechanism in that country.

***Keywords:*** *public administration, business, public-private partnership*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.